**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HƏMİDƏ MƏMMƏDQULUZADƏ VƏ BANİN YARADICILIĞINDA MEMUAR JANRININ EPİSTEMOLOJİ TƏHLİLİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya


İddiaçı: **Tamara Rövşən qızı Atakişiyeva**


Fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Filologiya elmləri doktoru, professor
**Asif Abbas oğlu Hacıyev**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
**Bella Sirac qızı Musayeva**

Filologiya elmləri doktoru, dosent
**Cavanşir Əziz oğlu Əliyev**

Filologiya üzrə fəlsəfə doktoru
**İlahə Məsim qızı Hacıyeva**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, professor
**Vaqif Soltan oğlu Verdiyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ədəbiyyatın söz sənəti olması ilə yanaşı insan ruhunun qidası kimi mühüm vəzifəni yerinə yetirməsi ədəbiyyat tarixində janr kimi vacib amilin öyrənilməsini ön plana çəkir. Azərbaycan ədəbiyyatşünaslığında janrın öyrənilməsi ilə bağlı bir sıra tədqiqat əsərləri mövcuddur. Bu halda konkret əsərin müəyyən janra aid olmasını göstərməklə yanaşı həmçinin onun mahiyyətinin də izah olunması xüsusi əhəmiyyət kəsb edir.

XVIII əsrdə memuar janrı geniş yayılmışdı. Maarifçilik dövrünün demək olar ki, bütün görkəmli nümayəndələri bu janrda qələmlərini sınamışdılar: A.Sen-Simonun, Volterin, P.Bomarşenin, K.Qoldoninin, V.Alfyerinin, C.Kazanovanın memuarları geniş yayılmışdı. Məhz ədəbiyyatşünaslığın bu janrının inkişaf etməsi maarifçilik dövründə ədəbiyyatın kommunikativ imkanlarını son dərəcə genişləndirirdi. Çap olunmaq məqsədilə yazılmış məktublar epistolyar janrının imkanlarından birbaşa polemika açmaq və mübahisələrdə iştirak etmək imkanı yaradırdı. Oxucular Maarifçilik dövrünün görkəmli xadimlərinin şəxsi yazışmaları ilə tanış olmaq imkanı əldə edirlər. Memuar janrının əsasını təşkil edən səyahət, yaxud yol qeydləri janrı müxtəlif xalqların həyat və məişətini yeni nəzərlə müşahidəyə, müxtəlif xalqların adət-ənənələrini müqayisə etməyə imkan yaradır.

Memuar janrı dünya ədəbiyyatında yetərli şəkildə araşdırılsa da, ölkəmizdə bu janrın öyrənilməsi ilə bağlı sistemli tədqiqat aparılmamışdır. Dahi Nizaminin yaradıcılığından üzü bəri Azərbaycan ədəbiyyatı tarixinin müxtəlif dövrlərində memuar xarakterli müxtəlif tipli sənət əsərlərinin mövcud olmasına baxmayaraq tədqiqatçıların bəziləri bu janrın araşdırılmasına səthi şəkildə toxunmaqla kifayətlənmiş, sistemli şəkildə memuar ədəbiyyatının öyrənilməsindən yan keçmişlər. Bu baxımdan müasir dövrdə millətlərin, xalqların, rəngarəng sosial təbəqələrin arasında mövcud olan ziddiyyətləri uğurla aradan qaldırmaq üçün ən azı yaxın keçmişdə - XX əsrdə mədəni-mənəvi dəyərlər sahəsində özlərini

büruzə verən analoji halları, böhran durumlarını ətraflı şəkildə araşdırmaq, "tarixin dərsləri"ni bütün mürəkkəbliyi və ziddiyyətləri ilə nəzərə almaq, onlardan lazımi nəticə çıxarmaq üçün memur ədəbiyyatının da ciddi təhlil olunması tələb olunur. Müəlliflik konsepsiyasında sənətkarlıq tələbi zövq tələbi ilə əvəz olunur. İndi əsər müəllif, qəhrəman və oxucu arasında xüsusi münasibət növü kimi dərk olunur. Bu münasibət mətndə yalnız ifadə olunur. Məhz bu səbəbdən yeni paradiqmanın çərçivəsində mətnin istənilən nəsr formaları – gündəliklər, məktublar, memuarlar, yol qeydləri və sairə əsər statusu qazana bilər. Azərbaycan ədəbiyyatı tarixində memar janrına müraciət etmiş iki məşhur xanım yazıçı-publisist Həmidə Məmmədquluzadə və Banin tərəfindən yazılmış xatirə ədəbiyyatının təhlili ədəbiyyatşünaslığımızda memuar janrına fərqli mövqedən yanaşmağa imkan verir və ədəbiyyatşünaslığımızda bu janrın inkişaf yollarının müəyyənləşdirilməsində xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan təqdim edilən dissertasiya işi ədəbiyyatşünaslıqda yeni bir problemin öyrənilməsi sahəsində aktuallığını qoruyub saxlayır. Avropa ədəbiyyatının mütərəqqi ədəbi ənənələrini böyük uğurla davam və inkişaf etdirən Banin dövrünün bir sıra aktual problemlərini, xüsusilə XX əsrin əvvəllərində Azərbaycan reallığına həsr edilmiş məsələləri ədəbiyyata gətirmiş, onları bədii formada yüksək sənətkarlıqla qələmə almış və dünya demokratik düşüncə və yeni həyat tərzinin formalaşmasında əvəzsiz rol oynamışdır. İşin aktuallığını səciyyələndirən bu aspektləri, Həmidə Məmmədquluzadə və Baninin yaradıcılıqları kontestində kompleks şəkildə tədqiqini və təhlilini nəzərə alsaq, təqdim olunan dissertasiya bu istiqamətdə atılmış ilk addımdır.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə qeyd etməliyik ki, Azərbaycan ədəbiyyatşünaslığında memuar janrının sistemli tədqiqatına hələ də ehtiyac qalmaqdadır. Dövrün ab-havasını onun ictimai-siyasi və tarixi proseslərdə yerini, hadisələrə münasibətini özündə əks etdirən yenidən bərpa olunmasına cəhd edən keçmişin məziyyətlərini "sənəd" xarakteri malik olan memuar janrı əsasən oçerklə müqayisə edilir. Tədqiqatçılar onu "renessans dövrünün məhsulu" kimi dəyərləndirirlər, lakin bir qism alimlər memuar

ədəbiyyatının XI yüzilliyə gedib çıxmasını iddia edirlər. Bu baxımdan tədqiqatçı alim Nailə Səmədovanın "Azərbaycan memuar ədəbiyyatı tarixi", "İnsan, zaman və həyat həqiqəti" və Eyvaz Eminalıyevin "Azərbaycan milli memuar ədəbiyyatı" kimi əsərlər diqqəti cəlb edir. Bu əsərlərdə hər iki tədqiqatçı orta əsrlərdən üzü bəri yaşamış Azərbaycanlı sənətkarların yaradıcılığında tərcümeyi-hal və xatirə tipli yazıları təhlil edərək dövrün ictimai-siyasi həyat həqiqətlərini diqqətə çatdırmışdır. Tədqiqatçı Azərbaycan memuar ədəbiyyatının kamil nümunələrini araşdırmış, lakin Həmidə Məmmədquluzadə və Baninin yaradıcılığına müraciət etməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini XX əsrin əvvəllərində mövcud olan memuar ədəbiyyatından seçilmiş əsərlərin- Həmidə Məmmədquluzadənin "Xatirələrim" və ömrünün az bir hissəsini doğma ölkədə keçirən və mühakimə olunmaqdan qaçaraq Fransada azadlığını tapan Azərbaycanlı yazıçı-Baninin "Qafqaz günləri" və "Paris günləri" də təsadüfi səciyyə daşımır. Ötən əsrin əvvəllərinin mədəni-psixoloji, sosial-fəlsəfi və bədii-estetik fərqliliyini təsbit etmək, həm də dünyamiqyaslı bir hadisə olduğunu göstərmək baxımından hər iki yazıçının əsərlərinin obyekt kimi seçilməsi bu baxımdan qanunauyğundur. Dini və cinsi ayrıseçkiliyin bütün ölkəni əhatə etdiyi dövrdə qadınlar ictimai-siyasi həyata münasibətlərini xatirələrin köməyi ilə bildirir və ən səmimi etiraflarını bədii yaradıcılıq vasitəsi ilə ötürürdülər. Öz həyatının təfərrüatlarını vermək və dövrün gizli əlamətlərini və ya simvollarını oxuculara anlatmaqla yanaşı onu dərk etmək də yazıçının sosial problemə necə toxunduğunu göstərir.

XX əsrin əvvəllərindəki iki yazıçı xanımın xatirə tipli əsərlərinin eyni tədqiqatda birləşdirən eyni ədəbi dövrün, konkret olaraq bu dövrü təmsil və simvolizə edən iki əsərin təhlilində ortaq predmetə - həyat həqiqətlərinə müraciətdir. Müxtəlif milli-etnik mənsubiyyətli ədəbiyyatların təmas nöqtəsində eyni ölkənin problemlərini aktual edən ən əsas məqam ədəbiyyatların qloballaşma kontekstində özünəməxsusluqlarını qoruma qabiliyyətini aşkarlamaqdır. Ayrı-ayrı yazıçıların ədəbi-bədii yaradıcılığının nüvəsindəki ictimai həyat gerçəkliyinin səciyyəsini üzə çıxarmaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi memuar janrının özünəməxsus xüsusiyyətlərini və bu janrın epistemoloji təhlil vasitəsilə və Həmidə Məmmədquluzadə və Banin əsərləri əsasında istər ideya-məzmun, istərsə də janr və poetika baxımından memuar janrına müraciətin prinsiplərini aşkara çıxarmaqdır. Memuar janrının romanla sintezini, "modern dünya"ya (çağdaş insan zəkasına) gəliş mexanizmini şərtləndirən amilləri, bu prosesi yetişdirən ədəbi-mədəni mühiti şərh etmək tədqiqatın əsas elmi məqsədinə daxildir. Bu məqsədə nail olmaq üçün aşağıdakı elmi vəzifələr yerinə yetirilib:

- Memuar janrınnı klassik Azərbaycan ədəbi nümunələri kontekstində ədəbiyyatda yeni mərhələ kimi araşdırıb, epoxanın ədəbi-tarixi xüsusiyyətləri nəzərdən keçirmək;
- Həmin dövr Azərbaycan ictimai-siyasi ədəbi mühitini səciyyələndirən bədii-estetik yeniliklər təhlil edərək nəzəri-tarixi kontekstdə sistemləşdirmək;
- Azərbaycan nəsrində xatirə ədəbiyyatına müraciətin ədəbi-tarixi və bədii-fəlsəfi səbəblərini müəyyənləşdirmək;
- Memuar ədəbiyyatına xas olan düşüncə modelinin müasir nəsr müstəvisində interpretasiyasının poetik mexanizmi təhlil etmək;
- Həmidə Məmmədquluzadənin "Xatirələrim" və Baninin "Qafqaz günləri" və "Paris günləri" əsasında aparılan epistemoloji təhlildə janrın bədii və fəlsəfi mahiyyəti tarixilik və müasirlik kontekstində analitik təhlilin predmetinə çevirmək;
- Bu əsərlərdə ayrı-ayrılıqda etiraf xarakterli motivlərin və dövrün ictimai-siyasi hadisələrinə münasibətin rolunu və yerini təsbit etməklə insan və tarix, insan və cəmiyyət, insan və zaman kimi bədii-fəlsəfi problemləri nəzərdən keçirmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji istiqamətini memuar və ədəbiyyat arasındakı əlaqələrin mexanizminin təhlilinə dair müxtəlif nəzəri konsepsiya və məktəblərin qənaətləri, nəsrdə memuar ədəbiyyatının rolunu və yerini izah etməyə yönəlik tədqiqatlar müəyyənləşdirir. Dünya ədəbiyyatşünaslarının memuar ədəbiyyatı ilə bağlı elmi nəticə və qənaətləri, Azərbaycan ədəbiyyatşünaslığında memar janrının şərhinə dayanan tədqiqlər

dissertasiyanın metodoloji bazasını müəyyən edir. XX əsrin əvvəllərində Azərbaycan ictimai-sosial mühitin öyrənilməsi istiqamətində bir sıra yazıçıların xatirə tipli dövrün ümumi koloritinə yönəlik, müxtəlif tematikalarda, əsərlərdə irəli sürülən fikirlər təqdim olunan dissertasiya işinin nəzəri metodoloji qaynaqları kimi önəmli səciyyə daşıyır. Tədqiqat memuar ədəbiyyatı ilə bağlı nəzəri konsepsiyaların metodoloji baza və qənaətlərinə, tarixi müqayisəli təhlilin əsas prinsiplərinə istinadən xüsusiyyətləri poetik cəhətdən bənzər təzahür etdirmə qabiliyyətini aşkara çıxarmağa çalışır. Tədqiqatda əsasən təsviri, tarixi-müqayisəli və müqayisəli-tipoliji metodlardan, hermenevtika və diskursiv təhlil üsullarından istifadə olunur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Memuar janrı klassik Azərbaycan ədəbiyyatı kontekstində ədəbiyyat tariximizdə yeni mərhələdir və epoxanın ədəbi-tarixi xüsusiyyətlərini əks etdirir;
- Azərbaycan ədəbiyyatında memuar özünəməxsus epistemoloji və ontoloji xüsusiyyətlərə malik orijinal ədəbi janrdır;
- Azərbaycan nəsrində xatirə ədəbiyyatına müraciət dövrün və milli mədəniyyətin ədəbi-tarixi və bədii-fəlsəfi amilləri ilə müəyyənləşərək janr tipologiyasını formalaşdırır;
- Baninin və Həmidə Məmmədquluzadənin yaradıcılığında müəlliflərin fərdi və kulturoloji özünüidentifikasiyası əsas janr yaradıcı amil kimi çıxış edir və bütövlükdə bu janrın tipologiyasını səciyyələndirir;
- Həmidə Məmmədquluzadənin “Xatirələrim” və Baninin “Qafqaz günləri” və “Paris günləri” əsərləri əsasında aparılan epistemoloji təhlil bütövlükdə milli ədəbiyyatımızda bu janrın bədii və fəlsəfi mahiyyətini tarixilik və müasirlik kontekstində təhlilinə nəzəri-metodoloji zəmin yaradır;
- Qeyd olunan əsərlərdə etiraf xarakterli motivlər və dövrün ictimai-siyasi hadisələrinə münasibət müvafiq janrlarda və mətnlərdə insan və tarix, insan və cəmiyyət, insan və zaman kimi bədii-fəlsəfi problemlərin bədii təfsirində mühüm rol oynayır;

- Baninin və Həmidə Məmmədquluzadənin yaradıcılığı memuar ədəbiyyatına xas olan düşüncə modelinin müasir nəsr müstəvisində interpretasiyasının poetik mexanizminin təhlilinə elmi və metodoloji əsas yaradır.

**Tədqiqatın elmi yeniliyi** bu mövzunun ilk dəfə dissertasiya səviyyəsində, memuar ədəbiyyat nümayəndələrinin yaradıcılığında qadına qarşı münasibət problemi, milli kimliyinin yazıçı alter-eqosuna təsiri problemi, xarici memuar ədəbiyyatı ilə qarşılıqlı əlaqə məsələsi və bu anlamda ortaya çıxan orientalizm problemi Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq sistemli araşdırmaya cəlb olunmasıdır. Eyni zamanda məhz Həmidə Məmmədquluzadə və Banin yaradıcılığında Azərbaycanlı qadınının hərtərəfli aspektdə özünüidentifikasiyası memuar janrı vasitəsilə ortaya çıxması və bu anlamda qadın xatirələrinin mahiyyətinin açıqlanması da tədqiqat işinin elmi yeniliyinə daxildir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada memuar ədəbiyyatı Azərbaycan ədəbiyyatşünaslığının tədqiq arealını genişlədir, milli ədəbiyyatı dünyada gedən ümumi prosesin bərabərhüquqlu iştirakçısı kimi tədqiq edir. Tədqiqatın nəzəri müddəaları və nəticələrindən tematikasına uyğun olaraq ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi sahələrində, işin elmi nəticələri ölkəmizin müxtəlif ali təhsil müəssisələrinin müvafiq ixtisas kadrların hazırlığı, fakültələrinin əlaqəli problem sahəsini əhatə edən müxtəlif fənlərin tədrisi zamanı material kimi istifadə oluna bilər. Dissertasiya ümumilikdə tədrisi işində geniş material təklif edə bilər. Habelə, dissertasiya işi ali təhsil müəssisələrində "Dünya ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı tarixi" fənlərinin tədrisində dərs vəsaiti kimi təcrübi əhəmiyyətə malikdir.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu Azərbaycan Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasında müəyyən olunub, Universitetin Elmi Şurasında və Koordinasiya Şurasında təsdiq olunub. Dissertasiya işi ilə bağlı müəllifin tədqiqatları Beynəlxalq və Respublika elmi konfranslarının materiallarında, Azərbaycanda və xaricdə nüfuzlu elmi nəşrlərdə, o

cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda öz əksini tapmışdır

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin ümumi həcmi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya işi giriş (14858 ş.i), 3 fəsil (I fəsil 102709 ş.i., II fəsil 67661 ş.i., III fəsil 66038 ş.i.) və nəticə (8010 ş.i.) hissəsindən ibarətdir. İşin ümumi həcmi 259273 şərti işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Azərbaycan ədəbiyyatında memuar janrının epistemoloji xüsusiyyətləri"** adlanan birinci fəsli 3 yarımfəsildən ibarətdir. Həmin fəslin "**Azərbaycan memuar ədəbiyyatının tarixi qaynaqları və təşəkkülü. Memuar, bioqrafiya, avtobioqrafiya"** adlı paraqrafı Azərbaycan memuar ədəbiyyatının tarixi qaynaqları və bu janrın illər ötdükcə formalaşmasını və müstəqil janr olaraq ortaya çıxmasını əks etdirir. XX əsrdə formalaşan xatirə janrının tarixi kökləri XI əsrə gedib çıxır. Klassik ədəbiyyat nümunələrinin əsasını təşkil edən məsnəvi və qəsidə janrında yazılan əsərlərdə fəxriyyə adlı hissə bütövlükdə xatirə ədəbiyyatına aid olan hissə kimi diqqəti cəlb edir. Qəsidə janrının ilk hissələrindən biri olan fəxriyyələrdə sənətkarlar öz istedadlarını, şeir yazmaq hünərlərini tərənnüm etməklə yanaşı öz nəsil-nəcabətləri, ailə üzvləri haqqında məlumat verirdilər. Fəxriyyələrdən sonralar şairlər məsnəvi janrından da istifadə etməyə başladılar. Bu baxımdan bütün məsnəvi-epik poemaların ilk hissələrində verilən bioqrafik məlumatlar xüsusi əhəmiyyət kəsb edir. Bu tipli nümunələrə aid ilk örnəklərə Nizami Gəncəvi, Nəsirəddin Tusi, Əbül Ula Gəncəvi, Xaqani Şirvani kimi sənətkarların yaradıcılığında rast gəlinir. XI əsrin saray ədəbiyyatının görkəmli nümayəndəsi Xaqani Şirvani və Fələki Şirvani kimi

klassiklərin müəllimi hesab edilən Əbül Ula Gəncəvinin yaradıcılığında ustad- şagird münasibətləri ilə bağlı xatirə janrının qığılcımlarına rast gəlmək olur.

Ümumiyyətlə, klassik şair və yazıçıların həyatı haqqında xüsusi mənbə olmadığı üçün müasir tədqiqatçılar bioqrafiyalarının tədqiqində onların öz əsərlərinə müraciət etmişlər. Məsələn, Məhəmməd Füzuli farsca divanin müqəddiməsində belə qeyd etmişdir: "*Bəzən ərəbcə şeir yazdım və ərəb fəsillərini müxtəlif mənzumələrimlə şadlandırdım. Bu mənim üçün asan idi. Çünki mənim elmi bəhslər dilim ərəbcə idi. Bəzən türkcə şeir dünyasında at çapdım və türk zəriflərinə türkcə şeirin gözəlliklərinə zövq verdim. Bu da məni bir o qədər təşvişə salmadı, çünki türkcə şeir mənim əslimin səliqəsinə uyğundur.*

*Bəzən fars dili sapına inci düzdüm və o budaqdan könül meyvəsi dərdim".*[1]

Əsrlər keçdikcə şair və yazıçıların yaradıcılığında avtobioqrafik məzmuna malik əsərlər daha da çoxalmağa başlayır. Abbasqulu ağa Bakıxanovun yaradıcılığında müstəsna əhəmiyyətə malik "Xəyalın uçuşu" adlı poema şairin səyahət zamanı qələmə aldığı xatirələrdən ibarətdir. Xatirə – əsər A.Bakıxanovun Varşava təəssüratlarından ibarət toplusudur. O burada tanış olduğu mötəbər ziyalı insanların həyat təzindən, polyak xalqının yüksək keyfiyyətləri haqqında xatirələrini bölüşür.

Şairin "Təzhibi-əxlaq" əsərinin müqəddiməsində yazdığı özünə aid məlumatların əks olunması da memuar janrının əlamətləri kimi hesab oluna bilər: "*Gənclik çağlarında öz ağlıma inanırdım, nöqsanlı olduğumu heç zaman ürəyimə gətirmirdim. Rəyimə müvafiq olmayan bir işi və ya istəyimin əksinə nəticələnən bir məsələni özgəsindən bilərək zəmanə adamlarını təsdiqləndirirdim.*

*Hərçənd ki, onlar da günahsız deyildilər. Lakin onların günahı mənim düşündüyüm qədər deyildi. Getdikcə təhqiqatım və təcrübəm*

---

[1] Füzuli, M. Əsərləri: [altı cilddə] / M.Füzuli. – Bakı: Şərq-Qərb. – c.1.- 2005. – s.17

*artdı, öz ağlımın dərəcəsinə şübhə eləməyə başladım. Dərk etmədiyim nöqsanlarım yavaş-yavaş ortaya çıxmağa başladı*”.[2]

XX əsr teatr sənətinin yaranması ilə bağlı artıq aktyorlar da öz tərcümeyi-halını, xatirələrini yazıya almağa başlamışlar. C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.S.Ordubadi, Ə.Nəzmi kimi yazıçılarla yanaşı H.Sarabski, Ə.Qəmərli, M.Əliyev kimi aktyorların da milli ədəbiyyatımızda memuarın orijinal janr növü kimi formalaşmasında böyük xidmətləri vardır. XX əsrin 50-90-cı illəri memuar ədəbiyyatımız artıq M.Hüseyn, Ə.Mirəhmədov, Ə.Vəliyev, Q.Xəlilov, A.Zamanov, B.Bayramov, Ə.Şərif kimi isimlərlə zənginləşir. Adı sadalanan yazıçılarda memuar janrının tarixi məzmun baxımından konkretliyi dərinləşir, artıq fərdi şəxsiyyətin həmin dövrün reallıqları ilə üzləşdiyi hadisələr qələmə alınır.

O dövrün məşhur aktyoru sayılan Əhməd Anatollu öz həyatını xatirələr şəklində “Əlli il səhnədə” kitabında ətraflı qeyd etmişdir. Ə.Anatollunun xatirədə qeyd etdiyi kimi aktyorluğa həvəsi böyük idi, lakin atası tərəfindən heç də xoş qarşılanmazdı: “*Mən birinci dəfə Qaçaq Kərəm pyesində Qaçaq Kərəmin yoldaşlarından Qaçaq Qulunun rolunda çıxış etmişəm. Bu çıxışım mənə heç də ucuz oturmadı. Bir neçə vaxtdan sonra atam xəbər tutmuşdu ki, mən teartda oynayıram. Bir axşam evə gəldikdə atamı çox acıqlı gördüm:-Deməli, hər işimiz düzəlmişdi bir oyunbazımız çatmırdı, o da düzədi, eləmi?” Dedim, ata, oyunbazlıq deyil, bu da bir sənətdir*”.[3]

Ümumiyyətlə, XX əsr Azərbaycan memuar ədəbiyyatının daha da çiçəklənən dövrüdür. Bu dövrün parlaq nümayəndəsi 1869-1932ci illərdə yaşamış Cəlil Məmmədquluzadədir. Onun qələmindən çıxan “Xatiratım” yazıçının memuar ədəbiyyatına töhfə etdiyi qiymətli əsərdir. Əsər C.Məmmədquluzadənin həyatının uşaqlıq illərindən bəhs edir. “Xatiratım” bu məşhur cümlələrlə başlayır: *“Gözümü ömrümdə birinci dəfə açan kimi dünyanı qaranlıq*

---

[2] Bakıxanov, A.A. Seçilmiş əsərləri / A.A.Bakıxanov. – Bakı: Avrasiya Press. – 2005. – s.21

[3] Anatollu, M.Ə. Əlli il Azərbaycan səhnəsində / Ə.M. Anatollu. – Bakı: Ecoprint, – 2017. – s.229

*görmüşəm. Bu qaranlıqda ilk dəfə eşitdiklərim bunlardır: Allahü Əkbər! Allahü Əkbər!*”.[4]

Nəticə olaraq aydın olur ki, memuar janrı yazıçının yaddaşına hopan və ya ona təsir edən, həyatında önəmli yer tutan hadisələrə subyektiv münasibətin ifadəsi olaraq yaranmışdır. Xatirələrdən fərqli olaraq bioqrafiya insan həyatını nəzərə alır və getdikcə daha çox faktlarla işıqlandırılır. Avtobioqrafiya öz həyatını ardıcıllıqla yazmağa yönəlmişdir. Saxta xatirələr memuarlara çox yaxındır, çünki qeyd olunan ikinci janr bir insanın xatirəsindən qaynaqlanır. Subyektiv rəy memuar əsərlərdə aparıcı rola malikdir, burada yazıçı asanlıqla improvizasiya edə bilər. Memuarı müəyyən etmək üçün biz avtobioqrafiyanın məhdudiyyətlərini aradan qaldırırıq.

Memuar müəllifləri həyatlarında mühüm məqam seçir və hekayələr vasitəsilə hadisəni canlandırmağa çalışırlar. Müəllifin hissləri və fərziyyələri povestin əsasını təşkil edir. Xatirələr hələ də hadisənin bütün faktlarını ehtiva edir, lakin müəllif burada daha çox çevikliyə malikdir, çünki o, hekayəni başqalarının sübut edə və ya təkzib edə bildiyi kimi deyil, xatırladığı kimi danışır.

Memuarların yazılma formasına görə müxtəlif növləri vardır. Onun daha geniş yayılmış forması gündəliklərdir.

Gündəlik bir gün və ya digər müddət ərzində baş verənlər haqqında hesabat tarixə görə tərtib edilmiş qeyddir (əvvəlcə əlyazma formatında). Gündəlik memuar, və ya tərcümeyi-hal üçün məlumat verə bilsə də, bir qayda olaraq, olduğu kimi dərc olunmaq niyyəti ilə deyil, müəllifin şəxsi istifadəsi üçün yazılır.

Xatirə ədəbiyyatın digər forması səyahətnamədir. Səyahətnamə səyahət jurnalı, həmçinin yol jurnalı adlanır və bir səyahətçi tərəfindən bəzən gündəlik şəklində, səyahət zamanı yazılan və sonra nəşr olunmaq üçün redaktə edilən səyahətçinin təcrübələrinin qeydidir.

Birinci fəslin II paraqrafı “**Azərbaycan memuar ədəbiyyatında klassik epistemoloji xüsusiyyətlər**” adlanır. Ümumiyyətlə, Baninin

---

[4] Məmmədquluzadə, C.H. Əsərləri: [dörd cilddə] / C.H. Məmmədquluzadə. – Bakı: Öndər nəşriyyat. – c.1. – 2004. – s.4

“Qafqaz günləri” və Həmidə Məmmədquluzadənin “Xatirələrim” əsərlərini epistemoloji cəhətdən təhlil edərək qeyd etmək olar ki, keçən əsrin əvvəllərində memuar tarixi, sosial və milli kontekstlərdən asılı olaraq humanitar fikrin tarixində misli görünməmiş hərəkilik, çeviklik, “mühit”ə uyğunlaşmaq keyfiyyətləri nümayiş etdirən fəlsəfi, epistemoloji, elmi-nəzəri, estetik təsəvvürlər kompleksidir.

Bu baxımdan dini dəyərlərin bədii əksi ilk növbədə yüzilliyin və minilliyin sonu əhval-ruhiyyəsinin formalaşdırdığı spesifik mentalitetin – dünyada insanın yerinin və rolunun, həmçinin onun dünyaduyum, dünyanıdərk və dəyərləndirmə imkanlarının üzə çıxarılmasına xidmət edən ümumhumanitar konsepsiyadır. Yalnız keçən əsrin 80-ci illərindən dini dəyərlərin təcəssümü dünya mədəniyyətinin müstəqil ümumestetik fenomeni qismində dərk olunmuş və bu dönəmdən bəri fəlsəfədə, estetikada, ədəbi-tənqidi fikirdə spesifik hadisə kimi üzə çıxmışdır.

Xatirə janrının Azərbaycan ədəbiyyatında xüsusi yeri vardır. Xatirələr müasir mədəniyyətə - digər janrlara və mətbuata - nüfuz etmişdir. "Memoir: A History" əsərində Ben Yaqoda qeyd edirdi ki: *"Xatirələr mədəniyyətin mərkəzi forması olmuşdur: burada təkcə hekayələr danışılmır, nə qədər arqumentlər irəli sürülür, məhsullar və xüsusiyyətlər idxal olunur, ideyalar yayılır, hərəkətlər əsaslandırılır, reputasiya qurulur və ya saxlanılır”.*[5] Məhz xatirə əsərlərin hesabına bəlkə də, müəlliflərin həyatı haqındakı reallıqları heç bir mənbədə deyil, yalnız memuarlarda oxucu aşkar edə bilər. Memuar janrı bizim ən insani arzularımızdan ikisini təmin edir: tanınmaq və başqalarını tanımaq. Hər memuarist öz kitabını özünəməxsus səsi ilə yazır. Səs yazıçının yazdığı üslubdur: fikirlərini çatdırma tərzi, söz seçimləri və nümunələri və hekayə yanaşma tərzidir. Oxucu bir xatirəni müəllifin səsi haqqında aydın təsəvvürü ilə tamamlayır. Xatirə müəllifə konkret həyat təcrübələrindən öyrəndiklərini bölüşmək imkanı verir. Hər bir mühüm həyat hadisəsini qeyd etmək əvəzinə, memuar mərkəzi mövzu ətrafında

[5] Yagoda, B. Memoir: A History. / B.Yagoda. – New York: Riverhead Books. – 2008. – p.17

müəyyən detallara diqqət yetirir. Bu yanaşma müəllifə həyatlarında aydınlıq və məna tapmağa kömək edir.

Xatirələr həm də oxuculara həm başqalarının, həm də özlərinin həyatı haqqında fikirlər əldə etməyə kömək edir.

Xatirələr oxucuları başqasının ağlına dəvət edir və bununla da cavablar, yumor hissi, ümumi zəmin və yaxud həyatın çətinlikləri və ya absurdlarından danışan maraqlı və ya unikal hekayələr təqdim edir.

Xatirələr həmişə birinci şəxsdə, mən/mənim dilindən istifadə edərək danışılır. Bu, hekayəni şəxsi, təcrübəni isə subyektiv edir. Əslində, povest müəllifin/subyektin nöqteyi-nəzəri süzgəcindən keçirildiyi üçün memuarlarda obyektivliyə nail olmaq çətindir.

Bir çox yazıçılar üçün şəxsiyyətin formalaşması dövrü kimi uşaqlıq xatirələri hər şeydən önəmlidir. Bəzən müəllif "həyat yaradıcılığı"na elə aludə olur ki, əsəri tarixi həqiqiliyə iddia edə bilmir. Məsələn, V.Xodaseviçin "Nekropol" kitabında toplanmış gümüş dövrə aid xatirələri ədəbi portretlərin karikaturasına baxmayaraq, nisbətən etibarlı hesab edilir, Q.İvanovun isə eyni dövrdən bəhs edən "Peterburq qışları" əsəri ədəbi tənqiddə real şəxslərin mifologiyasının bəhrəsi kimi sayılır.

Memuar nəsrindəki subyektiv və obyektiv arasında qeyri-sabit tarazlıq onu modernist və postmodernist yazıçıların (J.Jenet, H.Miller, A.Robb-Qrillet) bədii təcrübələri üçün sevimli sahəyə çevirir.

Memuar janrının bütün mətnlərinin başqa əsərlərlə, öz dövrü ilə, gələcəklə dialoq xarakteristikasını da unutmaq lazım deyil.

Deməli, memuarlar bir tərəfdən dövrün sənədləridir, çünki hər hansı memuar mətni tarixin konkret predmetinin baş verənlərə baxışını əks etdirir və oxucunu həmin reallığın az-çox etibarlı dünyası ilə tanış edir. Digər tərəfdən, xatirələr ideya verən obrazlı mətndir ki, yazıçının şəxsiyyəti haqqında, böyük ölçüdə özünün daxili aləmini sənədləşdirir. Bu səbəbdən memuar aləmində insan da yaşadığı dövrün sənədi hesab edilir.

Xatirəçi həmişə tədqiqatçı kimi çıxış edir, cəmiyyətin real həyatının fraqmentlərini canlandırır, yazdığı dünyanın obrazlı

mənzərəsini yaradan bir sənətkar kimi, publisist kimi özünün, ümumiyyətlə, subyektiv bütövlükdə çıxış edir, bu anlamda şəxsi xatirələr tamaşaçılara nəinki keçmişdə, həm də indiki zamanda və müəyyən mənada başa düşmək imkanı verən müəyyən təsir göstərə bilər.

Memuarların janr spesifikliyi, məzmun - forma xüsusiyyətləri, memuar mətnləri müəlliflərinin istifadə etdikləri bədii-publisistik resurslar uzun illər ədəbiyyatşünasların diqqət mərkəzində olmuşdur. Memuar janr nəzəriyyəsində çoxlu boşluqlar qorunur ki, bu da xatirələri digər ədəbi janrlar arasında mübahisəli edir.

Memuaristlər əsərlərini yazarkən daxili aləmi xarici təəssüratları ilə vəhdətdə verməklə yanaşı öz millətinin mədəniyyətini, milli dəyərlərini də oxucuya ötürür. Bu baxımdan Baninin səmimi etiraf üslubu ilə yazdığı əsərlər uğur qazanmışdır. Alim Tomas Kuzerin qeyd etdiyinə görə, yazıçılar özünün əsas qəhrəman olduğu əsərlərdə memuar janrına stil və ya detallar üçün deyil, müdriklik və özünü idrakına görə müraciət edirlər. Həmçinin, bu yanaşmadan əsərlərə nəzər yetirsək hər iki yazıçının əsər boyu ideallarının dəyişdiyini və mürəkkəbləşdiyini sezə bilərik.

Özünüidentifikasiya çətin və məsuliyyətli bir prosesdir. Bəzən insan ömrünün sonuna qədər özünü dərk edə bilmir, bəzən isə qorxudan bunu etmir. Amma Qafqazın qadınlar üçün xüsusən çətin olan bir zamanında iki güclü xanım yazıçıların bunun öhdəsindən gələrək ortaya gözəl xatirə əsərlərini çıxarması onların güclü analitik təfəkkür və sağlam düşüncəyə malik olmalarının götəricisidir.

Dissertasiya işinin III yarımfəsli **“Azərbaycan memuar ədəbiyyatında müasir epistemoloji xüsusiyyətlər”** adlı paraqrafdır**.** Fəlsəfi, epistemoloji, elmi-nəzəri və estetik təsəvvürlər kompleksinin humanitar elmlərin dövriyyəsinə daxil olması ilə eyni zamanda meydana gəlmiş, bu kompleksin tərkib hissələrini müxtəlif nəzər nöqtələrindən izah edən, onların yaranmasını şərtləndirən anlayışdır. Dünyanın modelini, yəni onun yığcam, müəyyən görmə bucağından sxematik təsvirini təklif edən incəsənət əsəri gerçəklik və müəllif qütbləri arasındakı gərginlik sahəsində formalaşmış epistemoloji metaforadır.

Memuar tipli əsərlərdə yazıçı öz şəxsiyyətini görmək istədiyi kimi nümayiş etdirir. *"Memuarlar müəllifin bütün həyatını, çox vaxt mühüm hadisələri, bəzən də xeyli dövrü əhatə edərək daha çox tarixdə görkəmli rol oynayan şəxslərə məxsus olur. Rəsmi işdə öz yerini tapmayan çox şey ola bilər ki, müasirləri tərəfindən müşahiə edilir və müasirlərin, şahidlərin yazılarında gələcək nəslə çatdırılsın*".[6] Həmidə xanımın Mirzə Cəlilə "Xatirələrim"i həsr etməsi buna parlaq nümunədir. Belə ki, burada dahi yazıçının həyatının görkəmli məqamları haqqında memuarist ətraflı məlumat vermişdir.

Memuar janrında əks olunan əsərləri müasir epistemoloji cəhətdən təhlil etmək bizə təkcə yaradıcılıq işin müxtəlif tərəflərdən görməyə imkan vermir, həmçinin müəllifin həmin an üçün olan həyata, xatirələrinə olan münasibətini açıb göstərir. Nailə xanımın qeyd etdiyi kimi "*Yaddaş insanın xarici aləmlə mürəkkəb əlaqəsinin nəticələrindən biridir. Lakin bu, hadisələrin passiv inikası deyildir, əksinə, o, insanın təcrübi fəaliyyəti ilə əlaqədardır*".[7]

Baninin dediyi kimi: "*Həyatımda ilk dəfə özümü azad hiss edirdim. Azadlıq o qədər idi ki, özümü belə itirdim. Xoşbəxtliyə yalnız yoxsulluq və tərəddüd mane ola bilərdi. Amma mane olmadı. Zənginlikdə xoşbəxtliyi görənləri təəccübləndirəcəyəm - məni yoxsulluq belə xoşbəxt edirdi!"*[8]

Dissertasiya işinin "**Baninin yaradıcılığında müəllifin fərdi və kulturoloji özünüidentifikasiyası"** adlı ikinci fəsli iki paraqrafdan ibarətdir. Bu fəslin I paraqrafı "**Banin və iki fərqli mədəniyyət: Şərq və Qərb ədəbi ənənələrinin sintezi.**" adlanır. Mütaliə prosesi ilə bağlı təhlilimizdə biz oxucu ilə mətn arasında qarşılıqlı münasibətlərin üç mühüm aspektini – öncəgörənliyi və keçmişə qayıdışı, bundan mətnin canlı hadisə kimi açıqlanmasının hasil

---

[6] Энциклопедический словарь: [82 т.]. – С.-Петербург: Акц. Общ. Брокгауз-Ефрон, – Том XIX. – 1896. – с.70

[7] Səmədova, Ə.N. Azərbaycan memuar ədəbiyyatı tarixi / N.Ə.Səmədova. – Bakı: Nurlan. – 2006. – s.6

[8] Банин, У.Б. Парижские дни / У.Б.Банин. – Баку: Кавказ. – 2006. – с.43

olunmasını və bununla birlikdə həyata bənzərlik təəssüratının yaranmasını müşahidə etmişik.

İstənilən memuar ədəbi nümunələrində də olduğu kimi "canlı hadisə" bu və ya digər şəkildə başa çatmamış qalmalıdır.

Mütaliə prosesində bu, oxucunu ardıcıllığın daimi axtarışlarına təhrik edir, çünki yalnız bu halda o durumu başa çatdıra və tanış olmayanı, yadı dərk edə bilər. Lakin ardıcıllığın dərk olunmasının özü də canlı prosesdir və bu prosesdə daim seçimə əsaslanan qərar qəbul etmək lazım gəlir. Lakin bu qərarlar öz növbəsində istisna etdikləri imkanlara reallıq verir, çünki onlar müəyyən olunmuş ardıcıllıqla sapmalar yaradırlar. Bütün bunlar oxucunu mətnin özünün yaratdığı gerçəkliyinə cəlb edir.

Özünü şəxsiyyət kimi dərk edənlər hər zaman keçmişdə və indidə öz yerini müəyyənləşdirmək, yaşanan həyatı dərk etmək, onu yazılı şəkildə təsbit etmək və öz təcrübəsini gələcək nəsillərə ötürmək üçün can atırdılar. İnsanda həmişə dayanmaq, daha doğrusu, zamanı və özünü bərpa etmək istəyi olub. Gözümüzün qabağında dəyişən, ildırım sürəti ilə unudulmağa gedən və bəzən sağlam düşüncəyə zidd olan ətraf dünya, adi təməllər, normalar, dəyərlər bütün bu dəyişikliklər insanda özünü identifikasiya ehtiyacı oyatmışdı. Bu səbəbdən xatirələr bu niyyəti mümkün qədər dolğun şəkildə həyata keçirməyə imkan verir.

Baninin hər iki xatirə kitabını oxuyarkən anlayırıq ki, yazıçı doğumdan sonadək müxtəlif millətlərə və dinlərə mənsub insanlarla görüşmüşdür. Bu nəzər-nöqtəsindən qeyd etmək olar ki, onun asanlıqla "fransız qadını" olmasının əsas səbəblərindən biri də Bakıda olarkən fərqli sivilizasiyalara uyğunlaşmasıdır, bəlkə də buna görə də tamamilə tam dindar Azərbaycanlı qadına çevrilməmişdir. Hətta onun azərbaycanlı mənşəli yaxın qohumları da bəzi hallarda Qərb qadınlarına məxsus həyat tərzini imitasiya etməyə çalışırdılar.

Beləliklə, yazıçının Parisli olmaqdan başqa bir yolu yox idi. Banin 1947-ci ildə verdiyi bir reportajda həyatındakı mədəni təsirləri belə vurğulayırdı: *"Mən ən müxtəlif mədəniyyətləri yaşamışam: anamın yerini alman bir dayə, mənim doğulduğum İslam mühiti, rusların ölkənin zəbti və nəticədə bizim tatar hesab olunmağımız,*

*gəlinciklərlə oynayarkən oxuduğum üsyankar mövzular, Tolstoy və Dostoyevskiy ... Ən böyüyü isə, Fransız təsirini qeyd etməliyəm.*"[9]

Qeyd edildiyi kimi, yalnız Fransa ömrünün çox hissəsini orada keçirdiyinə görə ona təsir etmədi, eyni zamanda da uşaq olanda ona inanılmaz görünən bir ölkənin xəyalını etdiyi üçün oldu. Fransa onun üçün azadlıq idi, Fransa onun qeyri-mümkün arzularının gerçəkləşməsini nəzərdə tuturdu. O, orada asanlıqla uyğunlaşa bilirdi, çünki uşaqlıqdan bu məqsədə doğru gedirdi.

Qərbi Avropa mədəniyyətinin kateqoriyalarını mexaniki şəkildə Şərqin rəngarəng mədəniyyətlərinə və ədəbiyyatlarına tətbiq etmək olmaz. Bu halda yalnız bəşəriyyətin mənəvi-ruhi inkişafının vahid prosesində qanunauyğun şəkildə meydana gələn və bir növ akademik N.Konradın göstərdiyi kimi bəşər tarixinin vahid mənasını üzə çıxaran daxili oxşarlıqlardan söhbət gedə bilər. Bu halda müqayisəyə bədii istiqamətlərin, yaxud hətta ədəbi dövrlərin deyil, xalqların mənəvi-ruhi həyatının bütöv mərhələləri, mədəniyyət tiplərinin cəlb olunması səmərəli nəticələrə gəlməyə imkan verər.

Dissertasiya işinin II fəslinin II yarımfəsli "**Müəllifin həyatı və avtobioqrafiya yazma prosesində şəxsi taleyinə münasibətinin dinamikası"** adlanır. Yazıçının öz şəxsi həyatını təsvir prosesində epistemoloji aspektlərin səciyyəsi və dinamikası Baninin "Qafqaz günləri" və "Paris günləri" əsərlərində qabarıq şəkildə özünü büruzə verir. Baninin yuxarıda adı çəkilən əsərlərini oxuyarkən onun Fransaya ilk addımı ilə həyatının tamamilə dəyişəcəyi öncədən hiss olunur. Yazıçının duyğuları və hissləri o qədər parlaqdır ki, 19 yaşındakı Um-əl-Banunun xoşbəxtliyi və psixoloji vəziyyəti ilə sonrakı dövrlərin Bənininin yaşantılarının həm fərqli, həm də bu şəxsiyyətin xarakter bütövlüyündən gələn ümumi cəhətlərini, bütövlükdə onun daxili təkamülünü və bu prosesin dinamikasını aydın sezirik.

Tom Marsden "The eventful life of Banine" məqaləsində qeyd etdiyi kimi, Baninin kifayət qədər qeyri-adi həyatı var idi. Şərqdən

---

[9] Marsden, T. The eventful life of Banine [Electronic resource] / Visions of Azerbaijan. – summer, 2016. URL: http://www.visions.az/en/news/808/15bf7191/

olan bir müsəlman qadınının yaşayamayacağı həyatı Ümmülbanu hərtərəfli yaşadı. Onun axtarıb-aradığı - qadın kimi xoşbəxt olmaq arzusu idi. Azərbaycanda bunun üçün cəhd etmədi, Fransada isə dostlarının, azadlığın, yazıçılıq peşəsinin hesabına nail ola bildi.

Xatirələrində yazıçı bir cümlə ifadə edir – Banin, bu düşmən dünyada öz yolunu, sevgisini, dostluğu və ya bir az məşhurluq tapmağa çalışan ən bədbəxt qadın idi. Qadın kimi xoşbəxt olmayan Ümmülbanu yazıçı kimi bunu əldə etdi. Buradan belə bir fikir yaranır, bəlkə də illər öncə Andrey Masarininlə qovuşsa idi, həyatda özünü sübut etmək üçün yazıçılığa müraciət etməyəcəkdi. Həyatın və hadisələrin dəyişkənliyi sayəsində Azərbaycanlı yazıçı müqəddəs yolu seçərək ürəkləri fəth edən əsərlər yaratdı. Banin qarışıq həyatında öz dəsti-xəttini tapan, hadisələrə müstəqil, qeyri-adi, bu səbəbdən özünəməxsus baxışı olan insan kimi nəinki məşhur ədiblərin, eləcə də oxucuların qəlbinə yol tapmışdır. Milli yazıçımız Fransada yaşasa da, Azərbaycanlı olduğunu heç vaxt danmırdı. Buninə Azərbaycanlı qadınları haqqında söylədikləri həqiqətlər əslində bir nəfərə ünvanlanmış fikir deyildi. "*Əgər Azərbaycana gəlsəydiniz, siz də bizim gözəllər barədə neçə-neçə əsrarəngsiz əsərlər yazardınız. Heç şübhə etmirəm ki, bizim qadınların igidliyinə, ismətinə heyran qalardınız. Azəri qadınları mərdlikdə, dostluqda, kişilərdən heç də geri qalmırlar. Onlar ailəyə sadiqdirlər və xoşbəxtliklərini qorumaq üçün hər çətinliyə dözməyə hazırdırlar*".[10] Rus ədibinə deyilən bu sözər Ümmülbanu xanımın Azərbaycan torpağının yetişdirdiyi qadına verdiyi qiymətidir. Həyatının az bir hissəsini, cəmi on beş ilini Vətəndə keçirmiş yazıçının ifadələri onun torpaqlarını və həmvətənlərini nə dərəcədə tanıdığını və sevdiyinin sübutudur.

Dissertasiya işinin "**Həmidə Məmmədquluzadə yaradıcılığının ontoloji və epistemoloji təhlili**" fəslinin I yarımfəsli **"H.Məmmədquluzadənin bioqrafiyasında özünüidentifikasiya"** adlanır. Azərbaycan memuar ədəbiyyatının daha bir görkəmli nümayəndəsi, xeyriyyəçi xanım, dahi mütəfəkkir Cəlil

[10] Sabiroğlu.F. Şamaxı şəhzadəsi // Aydın yol. – 2016, 3 yanvar. – s.5

Məmmədquluzadənin həyat yoldaşı olmuş Həmidə xanım Məmmədquluzadədir. Yazıçının "Xatirələrim" memuar əsəri milli ədəbi yaradıcılıqda öz sözünü demiş və nöqtəsini qoymuş nümunələrdən birincisidir. Adı çəkilən kitab XX əsrdə Azərbaycan memuar ədəbiyyatını daha da dərinləşdirmiş və çiçəkləndirmişdir. Həmidə xanım bu kitabla ədəbiyyatımıza yaşadığı və yaratdığı həyatın hərtərəfli şəkildə əks edərək töhfə etmişdir. Tarixçi və dövrün maarifçisi olan Əhməd bəy Cavanşirin ailəsində Şuşanın Kəhrizli kəndində dünyaya göz açan yazıçı memuarist ziyalı atası sayəsində geniş dünyagörüşü formalaşdırmış və həqiqətən də "atasının qızı" olmuşdur.

Əhməd bəyin öz övladlarının təhsilinə birinci yerdə nəzarət etməsi kiçik Həmidənin hələ uşaqlıq vaxtından öz yeniyetmələri arasında seçilməsinə gətirib çıxarmışdır. Belə ki, o dövrün tipik kənd uşaqlarından fərqli olaraq rus dilini mənimsəmiş geniş çərçivəli, yüksək intellektə sahib bir qız idi. Öz şəxsi gündəlik qeydləri əsasında tərtib edilmiş xatirələrində Həmidə xanım nəinki o dövrün hadisələri təsvir edir, eyni zamanda oxucuya dövrün iştirakçılarının həyatının görünən maraqlı və qeyri adi tərəflərini çatdırır.

Abbas Zamanovun dediyi kimi, "*Həmidə xanımın xatirələrinin gözəl cəhətlərindən biri odur ki, o, bu xatirələri ancaq yaddaşına istinadən yazmamışdır, Öz gündəlikləri əsasında yazmışdır*"[11] .

Müəllif kitabda həyat yoldaşının özü ilə Mirzə Cəlilin qarşılıqlı münasibətlərindən aşkara çıxan insani keyfiyyətlərini nümayiş etdirən atmosfer yaradır. Qeyd olunduğu kimi, Azərbaycan ədəbiyyatında memuar yaradıcılığında qəhrəman çox zaman müəllifin özü olur. Amma H.Məmmədquluzadənin xatirələrində qəhrəman Cəlil Məmmədquluzadədir.

Demək olar ki, xanım yazıçı bütün əsəri həyat yoldaşına sərf edib. Əsərdə müəllif Cəlil Məmmədquluzadə haqqında taleyini

[11] Vətəndaşlıq ləyaqəti: [Elektron resurs]/ Ədəbiyyat və incəsənət. – Bakı, 1981, 3 aprel. URL: http://ilyasafandiyev.musigi-dunya.az/gotovie_knigi/megaleler_edabiyet_incesanet/vetendashlig_leyaqeti/files/publication.pdf

bağladığı doğma insan kimi, hörmət və sevgi ilə danışır. Ancaq əsərin mahiyyəti bu subyektiv münasibətlə, fərdi duyğularla məhdudlaşmır. H.Məmmədquluzadə Mirzə Cəlili dövrünün mədəni mühitində, ədəbi prosesində mühüm yer tutan ictimai şəxs, vətəndaş, mütəfəkkir, ədib kimi də anlayır və təqdim edir. Xatirələrdə C. Məmmədquluzadənin ictimai və ədəbi çevrəsi də nəzərə alınır, onun nəinki yaşadığı dövrdə, ümumən milli şüurumuzda və tariximizdə yeri, mövqeyi deklarativ tərzdə deyil, bədii təhlil, poetik detallar və təsvirlə təqdim olunur. Buna görə də əsərdə yazıçının müxtəlif şəxslər haqqında düşüncə və mülahizələri onun həm tarixi şəxslərlə münasibətlərini, onlarla öz arasındakı gizli məqamları üzə çıxarmağa, həm də yazıçının dəyərlər sistemini, milli-ictimai mövqeyini və estetik idealını aşkarlamağa kömək edir. Kitabın hər səhifəsi Xanımın həyat yoldaşı ilə ailə əlaqələrindən doğan şəxsi münasibətləri deyil, məhz ədibin professional planda ədəbiyyatla bağlı xatirələrlə bağlıdır.

Dissertasiya işinin üçüncü fəslinin II yarımfəsli "**Müəllifin memuar yazma prosesində müxtəlif sosial institutlarla (ailə, din, gender və s.) münasibəti**" adlanır. Ümumiyyətlə, memuar janrında yazıçıların ailə, din, gender və s. kimi anlayışlara münasibəti mühüm mətn yaradan amil rolunu oynayır və memuar əsərlərin səciyyəsini, poetik tipologiyasını anlamaqda həlledici rol oynayır.

Bu xüsusiyyət bütövlükdə memuarın janr növü hesab edə biləcəyimiz və Azərbaycan memuar nəsrində bir çox yazıçıların yaradıcılığında izlənən səyahət gündəliklərində də mühüm yer tutur. Dissertasiyanın müvafiq hissələrində "Vətən", "ev", "ailə" anlayışlarının rəmzi mənaları, eləcə də bədii zaman anlayışı, yazıçıların əsərlərində qəhrəmanın həyatının müxtəlif mərhələləri, onun uşaqlıq və yetkinlik dövrlərinin əlaqəsi və bununla da şəxsiyyətin dərin mahiyyətinin ifadəsi təhlil ediləcək. Bədii zamanın personajlarının psixoloji yaşantılarına, hadisələrin axarına, təhkiyənin tempinə uyğun ritmi də mətnin bədii aləmini yaradan amillər kimi tədqiq olunmuşdur.

H.Məmmədquluzadənin həyat və yaradıcılığı ilə tanış olarkən onu qadın hüquqlarının qoruyucusu, xanımlara təhsil, iş verməyə

çalışmaqla onlara daha yaxşı həyata şövq edən insan kimi tanıyırıq. Üç dövran görmüş memuarist hər periodda qadınların sıxıntılı həyat yaşadığını görmüşdür. Elə bu səbəbdən xalqına dəstəyi qız uşaqlarına, qadınlara maddi yardımı ilə başlamışdır. Əslində, qadınların rifahı üçün yaradılmış "Müsəlman Qadınların Xeyriyyə Cəmiyyəti" bu səbəbdən yaradılmış və onların güclü cinsdən heç də geri qalmamalarının bir nöqtəsi idi. Cəmiyyətdə Həmidə xanımla yanaşı onun kimi mərd qadın Gövhər xanım Qacar da işləyirdi. Xatirələrdə yazıçı Gövhər xanımı heyranlıqla təsvir edir və müasir qadının sətiraltı mənalarla belə olmalı olduğunu bildirir: *"Gövhər xanım təhsilli idi. Əlbəttə, başını örtmürdü. Çox fəal, yaradıcı bir qadın idi. Gövhər xanım bizim ərizə və müraciətlərimizin qəbul olunmasına öz şəxsi gücü, ağlı və mərifəti hesabına nail olmuşdur".*[12]

Həmidə Cavanşir şəxsiyyəti o dərəcədə parlaq, gözəçarpandır ki, əminliklə memuarist xanımın Azərbaycanlı qadınları üçün ən gözəl örnəklərdən biri olduğunu söyləmək olar. Həmidə xanım xalqın yolunda isməti ilə, savadı, dünyagörüşü, müdrikliyi ilə böyük çətinliklərə sinə gərib. Həm şəxsi, həm ictimai həyatında ədəb-ərkanı ilə əsl Azərbaycan xanımına layiq nailiyyətləri Şərq qadınının əsl timsalı olaraq qalacaqdır

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqat zamanı nail olunan elmi müddəalar tezis şəklində diqqətə çatdırılır. Dissertasiya işi bir ədəbi janr və nəzəriyyə kimi memuara ümumi baxış təqdim edir, xatirənin yaranması və inkişafına həsr olunub və onun ən diqqətəlayiq meyllərinə işıq salır. Elmi iş həm də janrın humanitar elmlərdə və ondan kənarda şəxsi hekayələrin çoxsaylı üsullarını araşdırır. Beləliklə, janr tarix və ədəbiyyat arasındakı tərəddüddən sosiologiya, psixologiya, texnologiya və mediaya səyahətlərə nəzəri keçidin əksidir.

Banin və Həmidə Məmmədquluzadənin xatirələri nəinki onların yaşadığı mühit, ölkə, insanları haqqında məlumat verir, həmçinin epistemoloji təhlil nəticəsində yazıçıların o hadisələri yaşadığı zaman

[12] Cavanşir, Ə.H. Xatirələrim. / H.Ə. Cavanşir. - Bakı: Apostrof.- 2012. – s.124

və illər ötəndən sonra kağıza köçürən zaman hissləri ortaya çıxır. Baninin özü və ətrafını səmimi şəkildə tənqidi əsərlərinə əsrarəngsizlik verir.

Həmidə Məmmədquluzadənin Cəlil Məmmədquluzadə haqqında qiymətli informasiya verməklə yanaşı özünün Azərbaycan kəndlilərinin həyatında əvəzsiz mövqeyi haqqında "Xatirələrim"i Azərbaycan memuar janrının inciləri sırasına daxil edir.
Memuar ədəbiyyatın epistemoloji təhlili isə bu əsərləri müəllifləri ilə birgə hərtərəfli araşdırmasına kömək edir, nəticə etibarilə oxucu xatirələrin baş verdiyi mühit və insanların həyat tərzi haqqında dürüst bölgüyə sahib olur.

Əsərləri epistemoloji cəhətdən tədqiq etmək oxucuya müəlliflə əsəri arasında olan xüsusi bağlılığı, müəllifin daxili dünyasını aşkar etməyə kömək edir. Dissertasiyada müasir epistemoloji tədqiqatın mövcud vəziyyətini müəyyən edən amillər diqqətə çatdırılır:

- Bilik və obyektin əlaqəsi tamamilə kognitiv (idraki) vəziyyətdən kənara çıxır. Yaradıcılıq, dizayn, idarəetmə, təlim kimi digər fəaliyyət növlərində biliklərin fəaliyyətinin nəzərə alınması lazım olduğu kompleks təcrübələri inkişaf etdirir. Əsərləri oxuyub müşahidə etmək olar ki, hər iki xanım yazıçı bəzi məqamlarda öz idrakı, intuisiyalarına uyğun hərəkət etsə də, bəzi anlarda vərdiş almış hərəkətləri tətbiq etmişlər;
- "Həqiqət"in klassik əlaqəsi bir sıra digər münasibətlər ilə tamamlanır (bəzən də əvəz olunur): "uyğunluq", "tamlıq", "təfərrüatlılıq", "realizasiya" və s. Həqiqətin digər münsibətlərlə tam olaraq tamamlanması məhz xatirə əsərlərə xas cəhətdir. Çünki memuar yazıçısı öz nöqteyi nəzərindən olan həqiqəti əsərdə meydana qoyur. Yazıçının həqiqəti subyektivdir və xatirə əsər memuaristin həyat təcrübəsindən ibarət olduğundan həqiqəti uyğunluq, tamlıq, təfərrüatlıq, realizasiya və s ilə əvəz edə bilər;
- Mahiyyət etibarilə bilik tipologiyası metodoloji, təbii elmlər, humanitar bilikləri ilə daha əlaqəli olur;
- Tədqiqatın xüsusi mövzusu biliklərin semiotik quruluşu olur.
- "Bilik" -dən başqa, digər epistemoloji birliklər (məsələn, "dillər") də sıx olaraq tədqiq edilir. "Qafqaz günləri", "Paris günləri",

və "Xatirələrim"i oxuyarkən müəlliflərin xarici dilləri bilmələri aydın olur. Banin xarici dil olaraq rus və fransız dili, Həmidə xanım rus dili bilgilərinə sahib idilər.

Bu məsələ də onların uşaqlıq vaxtlarından yaxşı təhsil almalarından irəli gəlirdi. Baninin fransız dilini kiçik vaxtı öyrənsə də Parisdə daha da mükəmməlləşdirdi;

- Elm dünyasının böhranı təyin edilir: elmi bilik artıq əsas bilik forması olaraq qəbul edilmir, ənənəvi rasional anlayışlardan kənara çıxan müxtəlif tarixi və mənəvi praktikalarla əlaqəli idraki komplekslər daha çox maraq doğurur. Memuar əsərlərdə biz hansısa elm sahəsi və ya onunla bağlı fikirlərə rast gəlmirik, çünki bu işlər yaradıcılıq məhsullarıdır, məhz yazıçının təxəyyülü və təcrübəsindən irəli gələn əsərlərdir. Milliyətindən asılı olmayaraq hər hansı memuarist əsər yaradarsa, ora öz milli dəyərlərini əlavə edərsə və üstəlik digər millətin kaloritindən yararlanıb yaradıcı məhsuluna tətbiq edərsə onda bu əsər daha çox oxunaqlı olur. Həmidə xanım əsərində nəinki milli dəyərləri həmçinin İran əhalisinin güzəranından yazarkən əsərə rəng qatıb. Eyni cəhəti Baninin "Qafqaz günləri" əsəri haqqında da demək olar.

Məhz buna görə də memuar janrının inkişafı tarixi baxımdan mədəniyyətin həm elmi-intellektual təsəvvürləri, həm də bədii-kommunikativ aspektləri ilə bağlıdır.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**


1. Azərbaycan memuar ədəbiyyatında klassik epistemoloji xüsusiyyətlər // - Bakı: Dil və Ədəbiyyat, Bakı Dövlət Universiteti, - 2019. № 109, - s. 270-280.
2. Azərbaycan memuar ədəbiyyatının tarixi qaynaqları və təşəkkülü // - Bakı: Filologiya məsələləri, - 2019. № 14, - s.350-356.
3. Cognitive aspects of Azerbaijani female memoirs // - Baku: Philology and Pedagogy, - 2019. № 3, - p.62-69.

4. Eastern and western culture and the author's identity in Banine's perception // - Oslo: Norwegian journal of Development of the International Science, -2020. № .45, - p.35-39.
5. Fake memoirs and their proximity to life writing // -Baku: İpək yolu. Azərbaycan Universiteti. - 2020. № 2, - p.115-121.
6. Türk memuar ədəbiyyatında Ümmülbanu Əsədullayeva və Halide Edip Adıvar simalarının şəxsiyyət intellekti təhlili // I Uluslararası Türkbilim Öğrenci Kurultayı,- İstanbul: -14 sentyabr, - 2020, - s.65-73.
7. Həmidə Məmmədquluzadənin yaradıcılığında özünüidentifikasiya. // Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransı, – Bakı: - 29 aprel, - 2020, -s.65-68.
8. Teaching of autobiographical writings // X Beynəlxalq elmi və praktiki konfrans. Labyrinth of Reality, – Ukraine-Canada: - 14 November, - 2020, - p. 91-98.
9. A socio historical background of a «strong woman» in a memoir work by Hamida Javanshir // International Scientific and Practical Conference International Scientific Discussion: Problems, Tasks And Prospects. - Brighton, Great Britain: - 21 June, - 2021, - p. 90-95.
10. The author's relationship with various social institutions (family, religion, gender, etc.) in the process of a memoir writing. (On the base of Hamida Javanshir's creativity) // - Drohobych: Humanities Science Current Issues. Drohobych Ivan Franko State Pedagogical University, – 2022. № 53.

Dissertasiyanın müdafiəsi __16__ sentyabr 2022-ci il tarixində saat __14⁰⁰__ AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 - Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 53. AZ 1001.
AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __10__ avqust 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.08.2022

Kağızın formatı: A5

Həcm: 39299

Tiraj: 100